

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

4 noyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 42 (3555)

# AZƏRBAYCAN BÜTÜN HƏDƏFLƏRİNƏ ÇATIR

## *İrimiqyaslı quruculuq işləri bölgələrin inkişafına etibarlı zəmin yaradır*





Prezident İlham Əliyevin bölgələrə səfərləri, aparılan bərpa-yenidənqurma işlərinin gedişatını daim diqqətdə saxlaması dövlətimizin və onun liderinin quruculuq xarakterinin təcəssümüdür. Ölkə başçısı belə səfərlər zamanı ictimaiyyətlə görüşlərində, mətbuata açıqlamalarında görülmüş və görüləcək işlərin "yol xəritəsi"ni nümayiş etdirir, mühüm mesajlar verir.

Xüsusən 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra Qarabağda, Şərqi Zəngəzurda görülən geniş abadlıq-quruculuq işləri ölkəmiz üçün yeni dövrün başladığını göstərir. İrimiqyaslı quruculuq işlərinin həyata keçirilməsi Qarabağla bərabər, digər bölgələrin də inkişafına etibarlı zəmin yaradır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın noyabrın 1-də İsmayıllı və Şamaxı rayonlarına səfərləri də elan olunan sosialyönümlü siyasətin ardıcıllıqla, əhatəli şəkildə davam etdirildiyini, dövlət başçısının xalqın içərisində olduğunu, bölgələrin inkişafını şəxsən nəzarətdə saxladığını növbəti dəfə nümayiş etdirdi.

Qeyd edək ki, İsmayıllı rayonunda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edən dövlətimizin başçısına və birinci xanıma rayonda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib. Daha sonra Lahıc qəsəbəsini gəzib sakinlərlə söhbət ediblər və Bədöyün məscidində aparılan bərpa-təmir işləri ilə tanış olublar.

İsmayıllı rayonunda başlanğıcını Muğanlı-İsmayıllı yolunun 17-ci kilometrliyindən götürən Basqal-Sulut avtomobil yolunun açılışında iştirak edən ölkə rəhbəri, həmçinin Uşaq və Ailələrə Dəstək Mərkəzinin və İsmayıllı şəhər Natiq Behdiyev adına 6 saylı tam orta məktəbin yeni binalarının açılışlarına qatılıb.

Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şamaxı rayonuna səfərləri də ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etməklə başlayıb.

Dövlətimizin başçısı və birinci xanım bu səfər çərçivəsində "Azərişıq" ASC-nin Şimal-Qərb Regional SCADA İdarəetmə Mərkəzinin, 7 saylı körpələr evi-uşaq bağçasının, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Yaradıcılıq Mərkəzinin, Şamaxı şəhər stadionunun, Şamaxı Üzüm Tingçilik Mərkəzinin, Heydər Hüseynov adına Çarhan kənd tam orta məktəbinin və Pirsaat Baba ziyarətgah-məscid kompleksinin bərpa və yenidənqurma işlərindən sonra açılışlarında iştirak ediblər, Gənclər Parkında görülmüş işlərlə tanış olublar.

Ölkəmizin başçısı rayonlara səfərlərində yerli sakinlərə sosial obyektlərin tikintisi ilə bağlı hansı vədləri vermişdisə, onların istifadəyə verilməsi mərasimində iştirak etməklə, nümayiş etdirir ki, verdiyi sözə sadiqdir, xalqın rifahı namine daim fəaliyyətdədir. Təsadüfi deyil ki, bu gün hər kəs dövlət başçısının bölgələrə səfərlərinə regionların sosial-iqtisadi mənzərəsini real olaraq dəyişən hadisə kimi baxır. Prezident bölgələrə səfərlərində insanların hər bir təşəbbüsünə xüsusi önəm verir, xalqın qaldırdığı hər bir məsələni necə və nə vaxt icra edəcəyi barədə özü üçün fəaliyyət planı hazırlayır.

Hazırda Azərbaycan üçün Qarabağın inkişafı, yenidən dirçəldilməsi gündəmdə olsa da, ölkə rəhbərinin siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti belə deməyə əsas verir ki, çox keçməyəcək, işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq. Bununla yanaşı, biz digər bölgələrdə də quruculuq işlərinin öz tempi ilə davam etdirilməsinin, infrastruktur layihələrinin icrasının şahidi olacağıq.

# ZƏFƏR QAZANANLAR SIRAMIZA QƏBUL OLUNDU

Gənclər siyasəti dövlət siyasətinin mühüm və ayrılmaz tərkib hissəsidir. Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldır. Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında da yaxından iştirak edirlər. Yüksək mənəviyyata, iş keyfiyyətlərinə malik, bacarıqlı, fiziki cəhətdən sağlam gənclərin digər sahələrdə olduğu kimi daxili işlər orqanlarında da xidmətə qəbulu və irəli çəkilmələri DİN rəhbərliyi tərəfindən hər zaman diqqətdə saxlanılır.

Noyabrın 3-də daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştiraki ilə keçirilən respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışı da bunun bariz nümunəsidir.



Şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşən sıra baxışında əvvəlcədən verilmiş elana uyğun olaraq, Nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 237 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 75 nəfəri torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsinin iştirakçıları olub.

General-polkovnik V.Eyvazov xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini daim uca tutmalarını, müasir informasiya texnologiyalarının sirrlərinə yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkinlik nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.




# ÖRNƏK ÖMÜR YAŞADILAR

## Torpağı Vətən edənlər unudulmur



**Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan DİN Daxili Qoşunların hərbi qulluqçularının paytaxtda və yerlərdə anım mərasimləri keçirilir.**

Şirvan şəhərində şəhid hərbi qulluqçu, baş əsgər Kamran Fərəcovun ildönümü mərasimində DİN-in, eləcə də Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları və rayon ictimaiyyəti iştirak ediblər.

Şəhidlər xiyabanında baş tutan mərasimdə əvvəlcə bütün şəhidlərin əziz xatirələrinə ehtiram əlaməti olaraq "Şəhid Anası" abidəsinin önünə əklil qoyulub. Sonra şəhid K.Fərəcovun məzarı ziyarət olunub, önünə tər çiçəklər düzülüb, ruhuna dualar oxunub. Çıxış edənlər igid oğullarımızın döyüş meydanında göstərdikləri qəhrəmanlıqlarından, rəşadətlərindən, eyni zamanda şanlı tarixi qələbəmizdən qürurla danışıblar.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə baş əsgər Kamran Fərəcov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qax rayonunda da Vətən müharibəsi şəhidinin anım mərasimi keçirilib. Şəhid hərbi qulluqçu, çavuş Nəzir Osmanovun məzarını ziyarət edən DİN-in, Rayon İcra Hakimiyyətinin və Rayon Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları, eləcə də ictimaiyyət nümayəndələri Vətən uğrunda canlarından keçənlərin əziz xatirəsinin daim qəlblərdə yaşayacağını, onların döyüş meydanında göstərdikləri şücaətin gənc nəsillər üçün örnək olduğunu bildiriblər.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə çavuş Nəzir Osmanov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış DİN Daxili Qoşunların Biləsuvar və Cəbrayıl rayonlarından olan beş hərbi qulluqçusunun - Təhmasib Mustafayevin, Elvin Məmmədovun, Ruslan Qurbanovun, Asif Talıblının və Orxan Mirzəyevin medalları ailə üzvlərinə təqdim olunub.

Biləsuvar Rayon Polis Şöbəsində təşkil olunan tədbirdə torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş hərbi qulluqçuların əziz xatirələri anılıb, keçdikləri şərəfli döyüş yolu xatırlanıb.

Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə ölkə, eləcə də DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

# "YERALTI ŞƏHƏR"i qoruyanlar...

**Meqopolisə çevrilən Bakımızda nəqliyyat damarlarının arteriyası metrodur. Hər gün yüzminlərlə insan bu nəqliyyat vasitəsindən istifadə etməklə yerin üstündə itirdikləri vaxta yerin altında qənaət edirlər. Mənzil başına tez və rahat, həm də təhlükəsiz çatırlar.**



Bu yeraltı səltənətdə çalışanların, eləcə də minlərlə sərnişinin təhlükəsizliyinin təmin olunmasında polisin gərgin əməyi var. Yerin üstündə olduğu kimi, "yerin altında" da onlar gecəli-gündüzlü, sayıq, peşəkar xidmət aparırlar. Metroda xidmət aparmaq, sözün əsl mənasında, fədakarlıq tələb edir. Çünki sel kimi gələn izdihamı yoxlamaq, təhlükəsizlik mühiti yaratmaq, şübhəli şəxsləri nəzarətdə saxlamaq asan iş deyil. Bu, ilk növbədə səbr, dözüm və peşəkarlıq tələb edir. Bir sözlə, Metropolitendə Polis Şöbəsinin əməkdaşları qarşıya çıxan hər çətinliyin öhdəsindən layiqincə gəlməyə çalışırlar.

Görülən təhlükəsizlik tədbirləri ilə bağlı suallarımızı cavablandıran **Metropolitendə Polis Şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı Aleksandr İsmayılov** dedi ki, stansiyalarda və digər inzibati ərazilərdə ictimai təhlükəsizliyin və ictimai qaydanın təmin edilməsi məqsədi ilə müvafiq qabaqlayıcı tədbirlər görülür, əməkdaşlar arasında da mütəmadi maarifləndirmə işləri aparılır. "Hər gün bir milyona yaxın sərnişin məhz polisin yaratdığı təhlükəsizlik tədbirlərinə görə evindən çıxıb metrodan istifadə edir. Bu həm qürurvericidir, həm də məsuliyyətdir".




"Baş verə biləcək hadisəni əvvəlcədən hiss etmək riskli peşə sahiblərində illər keçdikcə vərdiş halını alır",- deyən həmkarımız metronun təhlükəsizliyini qorumaq üçün müasir texnologiyaların üstünlüyünə diqqət çəksə də, baş verən hər hansı bir hadisə zamanı peşəkarların səriştəsi, çevikliyi qarşısında onların aciz qaldığını bildirdi.

Qeyd olundu ki, bu gün metropolitendə xidmət aparan polis əməkdaşlarının fiziki və psixoloji hazırlığına da xüsusi diqqət yetirilir. Peşə hazırlığı dərslərində qabaqcıl ölkələrin təcrübəsi öyrədilir və xidmətdə tətbiq edilir.

Yeri gəlmişkən, həmkarlarımızın bu ilin 10 ayı ərzində gördüyü işlər də qənaətbəxşdir. Müvafiq dövrdə metro stansiyalarında müxtəlif hüquq pozuntularına yol verdiklərinə görə ümumilikdə 1095 nəfər, axtarışda olan 734 nəfər saxlanılmış, 1 soyğunçuluq faktı qeydə alınmışdır. Həmkarlarımızın sayıqlığı nəticəsində qeydə alınmış narkotiklə bağlı 2 faktın üstü "isti izlər"lə açılmışdır. Stansiyalarda mütəmadi olaraq davam etdirilən nəzarət-profilaktiki tədbirlərlə 17 nəfər koronavirus xəstəsi saxlanılmış, barələrində müvafiq tədbirlər görülmüşdür.

Şöbənin taqım komandiri, polis baş leytenantı Xəyal Allahverdiyev isə bildirdi ki, xidmətin təşkilində vətəndaş məmnunluğu prioritetdir və vətəndaşlarla ünsiyyətdə həssaslıq nümayiş etdirilməsi qarşıya qoyulan ən ümdə vəzifələrdəndir.

Bu gün metroda həyat öz axarı ilə davam edir və mənzil başına tələsənlər bilirlər ki, yolda qalmayacaqlar...

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# QİSASI QİYAMƏTƏ QOYMADILAR

## *Onlar Vətən tarixini yenidən yazdılar*

**Vətən müharibəsində yaralanmış hərbi qulluqçularımızın keçdikləri döyüş yolunu qələmə almaq məqsədilə Daxili Qoşunların Hərbi Hospitalında olduğum zaman palataların birində silahdaşlarının danışdığı müharibə xatirələrini sakit şəkildə dinləyən hərbi qulluqçu diqqətimi çəkdi. İlk baxışdan onun müharibə iştirakçısı olmayan, səhhətində yaranmış hər hansı bir problem səbəbindən burada müalicə alan hərbçilərdən biri olduğunu sanmışdım. Nəhayət, növbə Pərvin adlı bu hərbi qulluqçuya çatanda məlum oldu ki, Şuşa istiqamətində gedən döyüşlər zamanı aldığı ağır partlayış travması səbəbindən nitqi tutulduğu üçün sakit dayanıbmış. Bu baxımdan qeydiyyat apardığım dəftəri qazi silahdaşımıza uzadıb, ona verdiyim sualları yazaraq cavablandırmasını rica etmişdim.**



Çavuş Xudiyev Pərvin Vitali oğlu 1992-ci il oktyabrın 14-də Bakı şəhərində doğulub. Orta təhsilini Sabunçu rayonunun Pirşağı qəsəbəsində yerləşən akademik Xoşbəxt Yusifzadə adına 112 saylı orta məktəbdə alıb. Atası Vitali Xudiyev 2003-cü ildə vəfat edib. O zaman Pərvinin 10, bacısı Ayselin isə 11 yaşı olub. Silahdaşımızın anası Pərvanə xanımın qeyd etdiyi kimi, həyat yoldaşı vəfat etdikdən sonra ailə bir sıra çətinliklərlə üzləşdiyindən Azərbaycan Dövlət Neft Şirkətinin Zığ qəsəbəsində yerləşən bazasında əvvəlcə xadimə, bir müddət sonra operator vəzifəsində çalışaraq övladlarını böyüdüb, vətənpərvər ruhda tərbiyə edib. Pərvin orta təhsilini başa vurduqdan sonra hərbi xidmətə yola düşüb. Müddətli həqiqi hərbi xidmətini 2010-cu ilin oktyabr ayından 2012-ci ilin aprel ayınadək Daxili Qoşunların Bərdədəki "N" saylı hərbi hissəsində keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların Bakının Biləcəri qəsəbəsində yerləşən "N" saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətdə qalaraq Vətən qarşısında şərəfli borcunu yerinə yetirməkdə davam edib. 2015-ci ilin may ayından Daxili Qoşunların Lənkəran rayonundakı "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən çavuş P.Xudiyev əvvəlcə snayper qrupunda heyət nəfəri, 2016-cı ilin iyul ayından xəsarət aldığı günədək xüsusi həmlə qrupunda atıcı-sanitar kimi vəzifə borcunu yerinə yetirib.

Pərvin bu hərbi hissədə xidmətə başladığı gündən ailə üzvləri onu tək qoymayıb, Lənkəran şəhərində kirayə tutduğu mənzildə yaşayıblar. Bu barədə məlumat verən Pərvanə xanım canından çox sevdiyi oğlundan ayrı yaşamamaq, bir ana kimi övladına dəstək olmaq üçün hətta öz ərizəsi ilə işindən ayrıldığını və Bakıdan Lənkərana köçərək, müvəqqəti də olsa burada yaşamaq barədə qərar verdiyini dedi. Cəsur silahdaşımız Vətən müharibəsində aldığı ağır travma səbəbilə tərxis olunduqdan sonra Xudiyevlər ailəsi Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində yerləşən evlərinə qayıdıb.

Vətən müharibəsi başlayanda çavuş P.Xudiyev hərbi əməliyyatlara qatılıb. Füzuli və Şuşa istiqamətlərində aparılan hərbi əməliyyatlarda fəallığı ilə seçilib...

*Ardı 3-cü səhifədə.*

# Koronavirus xəstələri saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Oktyabrın 27-dən noyabrın 2-dək olan müddətdə polis əməkdaşları tərəfindən 10 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.




*Natiq Cavadov*




# XATİRƏLƏRDƏ YAŞAYACAQ

DİN Daxili Qoşunlarının Xüsusi Təyinatlı Dəstəsinin giziri Sərxan Abdullayevin 33 yaşının tamam olması münasibəti ilə doğulduğu Qazax rayonunda xatirəsi əbədiləşdirilib. Qazax Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən şəhidin adına bulaq kompleksi inşa etdirilib. Tədbirdə RPŞ-nin əməkdaşları ilə bərabər, Rayon İcra Hakimiyyətinin, yerli idarəetmə orqanlarının nümayəndələri, kənd sakinləri və şəhidin döyüş yoldaşları iştirak ediblər.



Tədbirdə çıxış edən RPŞ-nin rəisi, polis polkovniki Sənan Əsədov düşmənin torpaqlarımıza təcavüz etdiyi ilk günlərdən daxili işlər orqanları əməkdaşlarının silaha sarıldığını, nizami qüvvə kimi məhz polisin və Daxili Qoşunların hərbi qulluqçularının düşmənə layiqli cavab verdiyini bildirib.

Qeyd olunub ki, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən 44 günlük Vətən müharibəsində də Daxili Qoşunların hərbi qulluqçuları əsl qəhrəmanlıq nümunələri göstərərək Vətən tarixinə adlarını əbədi həkk ediblər. Onlardan 66 nəfər şəhidlik zirvəsinə ucalıb, 346 nəfər yaralanıb, 4 nəfər isə (1 nəfər ölümündən sonra) Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Şəhidin atası Elxan Abdullayev ölkə və DİN, eləcə də rayon rəhbərliyi tərəfindən onlara göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib, şəhidlərimizin xatirəsinə olan hörmət və ehtiramı yüksək qiymətləndirib.

*Eşqin Qasımov,*
*polis baş leytenantı*

# QİSASI QİYAMƏTƏ QOYMADILAR

## *Onlar Vətən tarixini yenidən yazdılar*

*Əvvəli 2-ci səhifədə.*

Daxili Qoşunların "N" saylı hərbi hissəsinin "Gürzə" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində xidmət etmiş silahdaşımızın ilk döyüş yolu 2020-ci il oktyabrın 17-də Füzuli istiqamətində, "Karyer" deyilən ərazidən başlayıb. Burada ermənilərin "Beton post" adlanan möhkəmləndirilmiş mövqeləri yerləşirdi. Tərkibində Pərvinin də olduğu qrupun şəxsi heyəti bu döyüşdə düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib, möhkəmləndirilmiş postlarını tutublar. İştirak etdikləri növbəti hərbi əməliyyat isə doğma Şuşanın azad olunması üzrə döyüş tapşırığının yerinə yetirilməsi idi. Özünün də qeyd etdiyi kimi, əsas tapşırıq Xankəndindən Şuşa istiqamətinə hərəkət edən düşmən qüvvələrinin qarşısını alaraq, onları məhv etmək olub: "Biz gizli bir şəkildə irəliləyib Şuşa ətrafındakı çətin keçilə bilən sıldırımlı qayaları aşaraq yüksəklikdə özümüzə mövqe tutduq. Şuşadakı erməni silahlılarına köməyə gələn qüvvələrin qarşısını qətiyyətlə alıb hərbi texnikalarını, həmçinin, xeyli sayda canlı qüvvəsini məhv etdik. Sonradan erməni silahlılarının bizi pusquya salaraq, mövqelərimizi tutmaq cəhdləri isə elə onların öz acı məğlubiyyətləri ilə nəticələndi. Bizimlə açıq döyüşə girməkdən qorxan düşmən uzaq məsafədən mövqelərimizi artilleriya



atəşinə tutdu. Elə bu zaman yaxınlığıma düşən mərminin partlaması nəticəsində travma aldım. Dərhal döyüşçü yoldaşım çavuş Zamiq Ağayev ilkin tibbi yardım göstərdikdən sonra digər silahdaşım çavuş Heydər Heydərovla birgə məni güllə və mərmi yağışı altından çıxarıb meşəlik ərazidəki təhlükəsiz bir yerə gətirdilər. Burada xeyli yaralı vardı. Düz 3 gündən sonra noyabrın 9-u axşam oradan təxliyyə olunduq. Əvvəlcə bizi Hadruta, orada tibbi yardım göstərildikdən sonra Füzuli Rayon Xəstəxanasına, daha sonra Bakıya-Daxili Qoşunların Hərbi Hospitalına gətirdilər. Şükürlər olsun ki, burada həkimlərimizin sayəsində sağlamlığım qismən bərpa olunub. Lakin tam sağalmağım üçün müalicəmi davam etdirirəm".

Çavuş P.Xudiyev onunla birgə döyüşdə iştirak edən silahdaşlarını da unutmayıb. Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olmuş baş çavuşlar Vüsal Allahyarovun, Kənan Kərimovun, Fərid Əmiyevin, çavuşlar Heydər Heydərovun, Zeynal Məmmədovun, Qafqaz Hüseynovun, Zamiq Ağayevin, İlkin Abuyevin və Famil Məmmədovun adlarını hər zaman qürur hissi ilə xatırlayacağını mənim qeyd dəftərimə yazıb.

Azərbaycan Prezidentinin 18, 25 və 29.12.2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Xudiyev Pərvin Vitali oğlu "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

# Ümumvətəndaş hərəkatına çevrilən mübarizə

## *Polis-vətəndaş həmrəyliyi gəncliyi qorumağa yönəlib*




Bu gün cinayətkarlığa, xüsusən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı aparılan qətiyyətli mübarizə ümumvətəndaş hərəkatına çevrilib desək yanılmarıq. Narkomaniyanın gələcəkdə dövlətin və xalqın inkişafını əngəlləməməsi üçün gecəli-gündüzlü xidmət aparan polisin həyata keçirdiyi əməliyyat tədbirlərinə dəstək olaraq vətəndaşların DİN-in, eləcə də Baş Narkotiklərlə Mübarizə İdarəsinin sosial şəbəkələrdəki səhifələrində minnətdarlıq hisslərini ifadə etmələri, həm də "ağ ölüm" alverçilərini ifşa etməkdə əsl vətəndaş mövqeyi sergiləmələri bunu deməyə əsas verir.

**Binəqədi Rayon Polis İdarəsi** əməkdaşlarının da XXI əsrin bəlası olan "ağ ölüm"ün geniş yayılmasının qarşısının alınmasında göstərdiyi fədakar xidmət rayon sakinləri tərəfindən rəğbətlə qarşılanır. Bu istiqamətdə aparılan mübarizə tədbirlərində sahə rəislərinin və sahə inspektorlarının fəaliyyəti də təqdir olunandır.

**Binəqədi RPİ İctimai Təhlükəsizlik Şöbəsinin rəisi, polis mayoru Tural Mehdilinin** sözlərinə görə,



vətəndaş-polis həmrəyliyi cinayətkarlıqla, ələlxüsus narkomaniya ilə mübarizədə əhəmiyyətli dərəcədə rol oynayır. İdarə əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində cari ilin üç rübü ərzində narkotiklə bağlı ***366 fakt üzrə - onlardan 101.363 qram tiryək, 19 kiloqram 672.218 qram heroin, 464.873 qram marixuana, 4 kiloqram 279.89 qram metamfetamin, 1.245 qram kokain, 2.01 qram metadon, eləcə də yaş çəkisi 74 kiloqram olan 175 ədəd çətənə kolu aşkar edilərək götürülüb. Ümumilikdə, 20 kiloqram 199.706 qram*** narkotik vasitələr və psixotrop maddələr qanunsuz dövriyyədən çıxarılıb.

İctimai qaydanın və ictimai təhlükəsizliyin qorunması ilə yanaşı, karantin rejimi tələblərinin təmin edilməsində, koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının, o cümlədən törədə biləcəyi ağır fəsadların qarşısının alınmasında sahə rəislərinin, sahə inspektorlarının fəaliyyətindən söz açan T.Mehdili nəzarət-profilaktik tədbirlər zamanı aktiv koronavirus xəstələrinin ictimai yerlərdə aşkar edilərək saxlanıldığını, barələrində qanunamüvafiq tədbirlərin görüldüyünü də diqqətə çatdırdı. Bundan başqa, inzibati təcrübə sahəsində bu ilin doqquz ayı ərzində idarə əməkdaşları tərəfindən 53 min 531 protokol tərtib olunub ki, bu da ümumi fəaliyyətin göstəricilərindəndir.

*T.Əlizadə,*
*polis mayoru*





# "Ömrünün qədrini bil"

## *Polislər Teatr Muzeyində narkomaniyadan danışıblar*

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində narkomaniya ilə mübarizəyə həsr olunmuş "Ömrünün qədrini bil" adlı tədbir keçirilib. Tədbirdə Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri, muzey əməkdaşları və media nümayəndələri iştirak ediblər.

Müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə başlayan tədbiri muzeyin əməkdaşı Fatimə Nəzərova giriş sözü ilə açıb. O, iştirakçılara bəşəriyyətin ən qorxulu bəlalarından biri olan "ağ ölüm" və onun törətdiyi fəsadlar barədə geniş məlumat verib.

Daha sonra **Bakı şəhər BPİ Cinayət-Axtarış İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantı Elçin Rəhimov və İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova,** Bakı şəhəri Narkoloji Dispanserin həkim-narkoloqu Fizzə Baxışova yeniyetmə və gənclərin zərərli vərdişlərdən qorunması, onların savadlı, vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi istiqamətində maarifləndirici mühazirə ilə çıxış ediblər.

Narkotik vasitələrin yeniyetmələrə əvvəlcə təmənnasız təklif olunduğunu və bu üsulla onların narkotikin qurbanına çevrildiklərini deyən həmkarlarımız, bəlaya düçar olan şəxsin əzablı həyatına, hüquq pozuntuları ilə müşayiət olunan əməllərinə xüsusilə diqqət çəkiblər.

COVID-19 pandemiyası ilə əlaqədar məhdud sayda auditoriya ilə təşkil olunan, həmçinin sosial məsafə, sanitar-gigiyena qaydalarına əməl edilən tədbir muzey əməkdaşları tərəfindən hazırlanmış videoçarxın nümayiş olunması ilə başa çatıb.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Monitorinqlər nəticəsində...

27 oktyabr - 2 noyabr tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 531 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 429 şadlıq sarayında, 102 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 118 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;

- 1 nəfər barədə material baxılması üçün məhkəməyə göndərilib;

- 1962 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

*N.Cavadov*

# REDAKSİYAMIZA ZƏNG GƏLDİ VƏ...

**Sınaqlardan keçən polis ömrünə hər birimiz şahidlik edirik. Yollarda tıxacların aradan qaldırılması, sürücülərin və piyadaların mənzil başına rahat və təhlükəsiz çatması, mühüm strateji obyektlərin, dövlət və şəxsi əmlakın mühafizəsinin təşkili, sabitliyin etibarlı qorunması, cinayətkarlıqla qətiyyətli mübarizə... sadalamaqla bitməz bəlkə də.**






Bütün bu vəzifələri yerinə yetirən, ən çətin öhdəlikləri üzərinə götürən kimdir desək, hər biriniz düşünmədən polis deyəcəksiniz. Humanizm, yardımsevərlik polisin həyat kredosu, illərlə formalaşan təcrübənin məhsulu olan peşəkarlıq isə polisin ikinci silahıdır. Məhz bu amillər onun nüfuzunu artırmaqla yanaşı, müsbət ictimai fikir formalaşdırır.

DİN rəhbərliyinə ünvanlanan təşəkkür məktubları, minnətdarlıq ifadə etmək üçün gələn zənglər rəğbətin bariz nümunəsidir.

Bugünlərdə redaksiyamıza zəng vuran İkinci Qarabağ müharibəsinin veteranı, qazi Murad Rəhimov sevincini bizimlə bölüşdü. Səbəbini isə belə izah etdi: “Həyat yoldaşımla bərabər şəhid Xudayar Yusifzadənin ildönümü günü Bərdəyə ziyarətə getmişdik. Qayıdarkən avtobusda yoldaşımın halı pisləşdi. Təcili xəstəxanaya çatmalı idik. Bu vaxt xidmətdə olan Dövlət Yol Polisi əməkdaşlarını görüb avtobusu saxlatdırdım. Yaxınlaşıb vəziyyəti danışdım. Təcili bizi xəstəxanaya çatdırdılar və yoldaşım əməliyyata alındı. Bu gün bir oğul atasıyam. Sevincimin həddi-hüdudu yoxdur. Ömür-gün yoldaşımın və övladımın həyatını xilas etdiklərinə görə polis əməkdaşlarına dərin təşəkkürümü bildirirəm. Çox xoşbəxtəm ki, bizi qoruyan, hörmət edən belə oğullarımız var”.

Qeyd edək ki, Murad Rəhimov Qubadlının, Füzulinin və Şuşanın azad olunmasına görə medalları ilə təltif olunub. O, Qubadlı uğrunda gedən döyüşlərdə yaralanıb.

Vətən müharibəsi qazisi Yeni Ələt-Astara yolunun 143-cü kilometrliyində yerləşən 726 saylı postda xidmət aparan həmkarlarımız, Baş Dövlət Yol Polisi İdarəsinin Yol-Patrul Xidməti Alayının 11-ci taqımının inspektorları, polis baş serjantları - Nail Şərifovun və Rövşən İsmayılovun adını minnətdarlıq hissi ilə çəkib bizim vasitəmizlə onlara xidmətlərində uğurlar arzuladı.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Yaşatmaq üçün...





Milli Hematologiya və Transfuziologiya Mərkəzi - Qan Bankı bölməsinin təşkilatçılığı ilə Nəqliyyatda Baş Polis İdarəsinin Dəmir Yolu Nəqliyyatında Polis İdarəsində növbəti qanvermə aksiyası keçirilib.

Aksiyada İdarənin rəhbərliyi olmaqla 40 əməkdaş iştirak edib.

Donorlar əvvəlcə həkim nəzarətindən keçirilib. Onların təzyiqləri ölçülüb, qanda hemoqlobinin miqdarı müəyyənləşdirildikdən sonra sağlıq durumu imkan verənlərin aksiyada iştirak etmələrinə icazə verilib. Könüllülük prinsipi əsasında keçirilən qanvermədə ümumilikdə 12 litr qan tədarük edilib.

Qeyd edək ki, tədbirdə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi karantin qaydalarının tələbləri nəzərə alınıb.

*T.Əlizadə*

# İnamı qazanıb, etibarı doğruldanlar

## Vətəndaş məmnunluğu üçün xidmət vəzifə borcuna sədaqətdir




Bakı şəhər sakini, sahibkar Elşən Sultanov Daxili İşlər Nazirliyinə ünvanladığı təşəkkür məktubunda xidməti fəaliyyətinin qayəsini vətəndaş məmnunluğu təşkil edən asayiş keşikçilərinin ölkədə sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması, iqtisadi cinayətkarlığın qarşısının alınması istiqamətində gördüyü işləri təqdirəlayiq hesab edir.

O, yazır ki, sahibkarlıq hüquqlarının pozulması nəticəsində maddi zərərə düşməsi ilə bağlı **Nəsimi Rayon Polis İdarəsinə** müraciət edib. Araşdırmalara başlayan İdarə əməkdaşları adıçəkilən şəxsin ölkə banklarının biri ilə kredit müqaviləsi bağlamasını, lakin bəzi zəruri sənədləşmə işlərinin bank tərəfindən tam və düzgün yerinə yetirilmədiyini aşkarlayıb. O da müəyyən olunub ki, müştəriyə məlumat verilmədən nəzərdə tutulan aylıq ödəniş qrafiki dəyişdirilib, hətta kredit statusu üzrə bir neçə ay ödəniş belə alınıb. Məsələnin “iç üzü”nü ortaya çıxaran RPİ əməkdaşları araşdırmanın davam etdirilməsi üçün işi aidiyyəti üzrə rayon Prokurorluğuna göndərib.

Tanışı Könül Həsənovanın dələduzluğunun qurbanına çevrilən Sara Rüstəmova adlı vətəndaş da Nəsimi Rayon Polis İdarəsinə üz tutub. Qısa zaman kəsiyində təqsirkarın yeri müəyyənləşdirilib və S.Rüstəmovaya dəymiş maddi ziyanın ödətdirilməsi təmin edilib.

Yeri gəlmişkən, ***Nəsimi RPİ tərəfindən cari ilin doqquz ayı ərzində 1166 fakt üzrə törədilən xırda talama nəticəsində maddi ziyanın ödənilməsi 87,6 faiz təmin olunub. Bundan başqa, hesabat dövründə törədilən cinayətlərin açılması 92,0 faiz təşkil edib, əməliyyat yolu ilə 5 ədəd odlu silah tapılıb, habelə 24 kq 493,955 qram narkotik vasitə, psixotrop maddə və onların prekursorları qanunsuz dövriyyədən çıxarılıb.***

*Teymur Əlizadə,*
*polis mayoru*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Baş Cinayət Axtarışı İdarəsi və Balakən RPŞ** əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cari il aprelin 22-də Balakən rayonundakı evlərin birindən qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Şuşa rayon sakini E.İbrahimov müəyyən edilərək saxlanılmışdır. Ətrafında aparılan əməliyyat tədbirləri ilə onun daha 2 evdən 6400 ABŞ dolları və 7 min manatı, 4500 manat dəyərində qızıl və gümüş əşyaları oğurlaması da müəyyən edilmişdir.

Polis əməkdaşları tərəfindən maddi sübutların bir qismi onun tanışı olan Balakən sakini L.Qardaşovanın evindən aşkar edilərək götürülmüş və o da saxlanılmışdır.

◆◆◆

**Sabunçu RPİ-nin 14-cü Polis Bölməsinə** Maştağa qəsəbəsindəki 3 küçədən “ATS”-ə məxsus 1423 metr uzunluğunda yeraltı kabellərin oğurlanması barədə məlumat daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən Bakı şəhər sakini H.Daşdəmirov qısa müddətdə müəyyən edilərək saxlanılmışdır. Ətrafında aparılan əməliyyat tədbirləri ilə onun Bakı şəhər sakini V.Atakişiyevlə birgə rayon telefon qovşağına məxsus 800 metr rabitə kabelini oğurlamaları da müəyyən edilmişdir. Davam etdirilən tədbirlərlə V.Atakişiyev də saxlanılmışdır.

◆◆◆

**Mingəçevir Şəhər Polis Şöbəsinə** noyabrın 1-nə keçən gecə şəhər ərazisindəki mənzillərin birindən 20 min manatın oğurlanması barədə məlumat daxil olmuşdur.

Dərhal polis əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilmişdir. Əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən ev sahibinin oğlu R.Rəhimov və digər oğlunun arvadı müəyyən edilərək saxlanılmışlar.

◆◆◆

**Bərdə Rayon Polis Şöbəsinə** noyabrın 1-də saat 20:00 radələrində Mirzalıbəyli kəndi ərazisində kənd sakini Ə.Nəsirovun Tərtər rayon sakini Ə.Bağırovun idarə etdiyi “VAZ-21102” markalı avtomobildə mübahisə zamanı onun qoluna bıçaqla xəsarət yetirib. Daha sonra xəsarət alan Ə.Bağırov avtomobilin yük yerində olan avtomat silahı götürüb onun həyətinə gələrək havaya atəş açıb.

Dərhal polis əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilmişdir.

Təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Ə.Bağırov saxlanılmış, ondan “AK” markalı avtomat silahı, patron darağı və 1 ədəd patron götürülmüşdür. Tibbi müayinədən keçirilərkən onun orta dərəcəli sərxoş olması müəyyən edilmişdir.

◆◆◆

**Biləsuvar RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Bakı şəhər sakini A.Həsənlinin idarə etdiyi “Saipa” markalı avtomobilə baxış zamanı ona, həmyerliləri V.Abıyevə və A.Muradova məxsus 4 kiloqram 260 qram heroin, 3 kiloqram 160 qram metamfetamin, 240 qram marixuana və 40 ədəd metadon həbi aşkar edilərək götürülmüşdür.

*Natiq Cavadov*

# SOSİAL ŞƏBƏKƏLƏRDƏ TƏŞƏKKÜR EDİRLƏR

**“Facebook” və “İnstagram” sosial şəbəkələrindəki “Ayan Xeyriyyə Qrupu” adlı səhifələrdə Azərbaycan Polisinə təşəkkür postları paylaşılıb.**

Birinci postda leykoz xəstəsi olan qızın atasının üzləşdiyi dələduzluq faktı ilə bağlı paylaşıma Daxili İşlər Nazirliyi tərəfindən dərhal reaksiya verildiyi, zərərçəkmişin Abşeron Rayon Polis İdarəsinə dəvət olunaraq dinlənildiyi, araşdırma aparılaraq qısa müddətdə məsələnin müsbət həll olunduğu qeyd olunur.

**“Ayan Xeyriyyə Qrupu”**nun paylaşdığı digər postda isə bu fikirlər öz əksini tapıb:

“Təşəkkürlər, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi!

Bir müddət öncə sosial şəbəkədə "firuzeye_destek_olaq" səhifəsi tərəfindən qan xərçəngi ilə mübarizə aparan Aylin Dadaşovanın şəkillərindən istifadə edildiyi və ailənin tanımadığı şəxsin öz mənafeyi üçün vəsait topladığı barədə paylaşım etmişdik.

Həmçinin bununla bağlı ailə, biz və digər biganə qalmayan şəxslər tərəfindən Daxili İşlər Nazirliyinə müraciət edilmişdir.

Həmin şəxs müəyyən olunaraq Səbail Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılmışdır.

Bir daha Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və Səbail Rayon Polis İdarəsinin şəxsi heyətinə təşəkkürümüzü bildiririk!”

Qeyd edək ki, müraciət DİN rəhbərliyi tərəfindən nəzarətə götürülmüş, Səbail Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-texniki tədbirlər nəticəsində Gəncə şəhərində yaşayan, həmin səhifəni yaradaraq idarə edən Rafiq Cəfərov müəyyən edilərək saxlanılmışdır. Araşdırma zamanı R.Cəfərovun səhifədə tibbi yardıma ehtiyacı olan şəxsə kömək edilməsi ilə bağlı elan və şəkil yerləşdirərək izləyicilərdən pul topladığı müəyyən olunub. O, yardım məqsədi ilə müraciət edən sosial şəbəkə istifadəçilərinə bank kartı göndərərək pulun ora köçürülməsini xahiş edib. Daha sonra pulları kartdan çıxararaq nağdlaşdırıb və şəxsi istifadəsi üçün xərcləyib. R.Cəfərovun yaşadığı mənzilə baxış keçirilən zamanı iş üzrə əhəmiyyət kəsb edən elektron məlumatlar və digər məlumat daşıyıcıları aşkar olunaraq götürülüb.

*Natiq Cavadov*

## Oktyabr ayının 27-dən noyabrın 2-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 302 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 73 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 469, o cümlədən borclu şəxs qismində axtarışda olan 376 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 9 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 10 nəfər ölmüş, 3 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 155 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik